# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**“Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi”nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 2-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Tarixi mənbələrdə Qərbi Azərbaycan həqiqətləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/10/5-M-10**
Müqavilənin imzalanma tarixi: **17 noyabr 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2023-cü il - 01 iyun 2025-ci il**
*Layihənin **II mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Layihənin bu mərhələsində Qərbi Azərbaycan ərazisində 1918-1920-ci illərdə həyata keçirilmiş soyqırım araşdırılmışdır. Bununla bağlı yerli və xarici ədəbiyyatlarda aparılmış araşdırma materialları müqayisəli şəkildə təhlil edilmiş, mövcud arxiv materiallarındakı faktlara diqqətyetirilmişdir. XX əsrin əvvəllərində ermənilər Azərbaycan ərazisində soyqırım siyasətini məqsədli şəkildə həyata keçirmişdir. 1917-ci ildə baş verən Fevral inqilabı və Oktyabr çevrilişindən sonra yaranmış siyasi vəziyyətdən istifadə edən ermənilər bolşeviklərlə əlbir olub türk-müsəlman əhaliyə qarşı soyqırım törətdilər. Əsas məqsəd Bakı sovetinə keçirilən seçkilərdə üstünlük əldə etmiş “Müsavat”ın sosial bazasını zəiflətmək idi. S.Şaumyan başda olmaqla erməni-bolşevik qüvvələri Bakıdan başlayaraq, martın 31-dən etibarən Şamaxı, Lənkəran, Zəngəzur, İrəvan, eləcə də, Urmiya, Xoy və Maku ərazisində davam etdirilmişdir. Ermənilər tərəfindən yerli əhaliyə qarşı törədilmiş ilk qətllər bundan ibarət deyil. Ermənilər tarixi-siyasi sabitliyin pozulmasından sui-istifadə edərək öz planlarını həyata keçirməyə çalışmışlar. Belə ki, 1905-1907-ci illərdə çar Rusiyasında baş vermiş inqilabdan faydalanmağa çalışan ermənilər türk-müsəlman əhaliyə qarşı soyqırım törətmişlər. Tarixdə erməni-müsəlman davası kimi qeyd edilən bu hadisələr zamanı dinc, günahsız əhaliyə qarşı ağlasığmaz cinayətlər törədilmişdir. Tarixi mənbələrdə də bununla bağlı kifayət qədər məlumatlar var. Məmməd Səid Ordubadinin “Qanlı illər”, Mir Möhsün Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” əsərlərində 1905-1906-cı illərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərlə bağlı mühüm faktlar özəksini tapmışdır. Bakıda rus dilində çap olunmuş “Kaspi” qəzetinin 1905-1906-cı illərin nömrələrində, həmçinin, 1907-ci ildə |

erməni dilində çap olunmuş A. Donun "Qafqazda erməni türk toqquşmaları (1905- 1906-cı illər)" kitabında həmin dövrdə baş verən hadisələrlə bağlı məlumatlara rast gəlmək mümkündür. Lakin azərbaycanlılar bundan dərs çıxarmamış, bu hadisələrdən sonra belə, humanizmi, birgəyaşayışı təbliğ edən əsərlər yazmışlar. Halbuki, ermənilər tərəfindən belə əsərlər mövcud deyil.

Həmin dövrdə daşnak hərbi qüvvələrinin vasitəsilə təşkil edilmiş bu soyqırımını pərdələməyə, başqa şəkildə qələmə vermişdilər. Belə ki, başda Stepan Şaumyan olmaqla erməni bolşevikləri vətəndaş müharibəsi kimi qələmə verməyə və bununla da əsl tarixi həqiqəti ört-basdır etməyə çalışırdılar. Azərbaycanda soyqırım törədən ermənilərin çirkin, cinayətkar əməlləri arxiv materialları, şahid ifadələrindən məlum olur. Lakin buna baxmayaraq, Azərbaycanda sovet hökuməti qurulandan sonra bu məsələ elmi istiqamətdə obyektiv araşdırılmamış və tarixşünaslıqda dövrlə bağlı olan əsərlərdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırım "vətəndaş müharibəsi", "Müsavat qırğını", "Mart qiyamı" kimi səciyyələndirilmişdir. Lakin SSRİ-nin süqutundan sonra tarixi həqiqətləri obyektiv araşdırmaq imkanı əldə edildi. Tarixi sənədləri, mənbələri olduğu kimi ifadə etmək, təhlil etmək mümkün oldu. Bu da bir daha saxtalaşdırmağa çalışdıqları, öz əməllərini gizlətməyə çalışan ermənilər və onların himayəçilərinin planlarına birbaşa zərbədir. 1918-1920-ci illərdə ermənilərin soyqırımına məruz qalan Azərbaycan ərazilərindən biri də Zəngəzur qəzası olmuşdur. Andranikin, Nijdenin rəhbərlik etdiyi erməni dəstələri Azərbaycan ərazilərinə hücum edərək əhalini hədələyir, Ermənistan hökumətinə tabe olmağa çağırışlar edirdi. Erməni hökumətinə tabe olmayanlar qəzanı tərk etməli, ya da Andranikin amansız cinayətlərinin qurbanları olmalı idilər. Qeyd edək ki, XIX əsrdə rus-Qacar və rus-türk müharibəsi nəticəsində tərəflər arasında bağlanmış müqavilələrlə bu əraziyə həm Osmanlı, həm də Qacar imperiyasından, çar Rusiyasının digər bölgələrindən ermənilər köçürülmüşdür. Köçürülmə nəticəsində tarixi Azərbaycan torpaqlarında məskunlaşan ermənilər buranın yerli əhalisinə qarşı etnik təmizləmə siyasəti aparmışlar. Təsadüfi deyil ki, XX əsrdə həyata keçirilən soyqırımda burada yaşayan erməni əhalisi aktiv rol oynamışdır. Andranikin və digərlərinin dəstələri hücuma keçərkən bu ərazilərdə yaşayan ermənilər də soyqırımın həyata keçirilməsinə dəstək vermişdilər, onlar burada XIX əsrdə köçürüldüyü üçün, bölgəni daha yaxşı tanıyırdılar, bu da hücum edən dəstələrə köməklik etməyə, müdafiə olunmağa çalışan azərbaycanlılara qarşı daxildən zərbə vurmağa imkan verirdi. 1918-ci ildə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımın araşdırılması ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il iyulun 15-də Fövqaladə Təhqiqat Komissiyası yaradılmışdır. Bu qurum vasitəsilə baş vermiş qırğınlar araşdırılmış, şahid ifadələri və istintaqa cəlb edilənlərdən əldə edilən məlumatlar bir daha erməni-bolşevik qüvvələrinin məqsədli şəkildə soyqırım törətdiyini təsdiq edir. Bu qurum tərəfindən araşdırılmış təhqiqat materiallarının 36 cildindən ikisi məhz Zəngəzurda baş verən hadisələrə aiddir. Fövqaladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Zəngəzur qəzasının 115 kəndi ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir. Həmin kəndlərin adları bu sənədlərdə qeyd edilmişdir. 115 kənddən 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürüldüyü göstərilmişdir. Bundan başqa, qeyd etmək lazımdır ki, Fövqaladə Təhqiqat Komissiyasının məruzəsi hazırlanaa qədər 10068 nəfər azərbaycanlının ermənilərtərəfindən qətlə yetirildiyi, ağır xəsarətlər nəticəsində şikəst edilmişdir. Soyqırım hadisələri zamanı vəziyyətin qarışıq, qeyri-sabit olması erməni vəhşiliklərinin qurbanı olan şəxslərin heç də hamısını müəyyənləşdirməyə imkan verməmişdir. Zəngəzur qəzasında baş verən hadisələr erməni vəhşiliklərinin sübutudur. Ermənilər əhalini amansızlıqla qətlə yetirmişdilər. Bunu faktlar və istintaqdan məlum olan nümunələrdən görmək mümkündür. Şəki kəndinin küçələrində tapılmış iki yerə bölünmüş uşaq meyitləri, İrmişli kəndində süngüyə keçirilmiş südəmər körpələr, evlə birlikdə diri-diri yandırılan ailələr, əli, ayağı, müxtəlif orqanları kəsilib dəhşətli vəziyyətə salınmış insanlar ermənilərin törətdiyi qətllərin miqyasını, dəhşətini göstərir. Bununla onlar əhali arasında qorxu yaratmaq, sağ qalan insanları belə "nümunələr"lə yaşadıqları yerlərdən birdəfəlik qovmağa

çalışırdılar. Ermənilər əhalinin dininə, adət-ənənəsinə də məhəl qoymamış, müqəddəs məkanlara zərər vurmaqdan çəkinməmişlər. Belə ki, Zəngəzur qəzasının Vaqudu kəndində ermənilərin məscidə toxunmayacağını güman edən 400 nəfərdən çox əhali orada gizlənmiş, bununla məsciddə qorunmağa çalışmışlar. Lakin, ermənilər məscidə bomba atmış, od vuraraq içindəki insanlarla birlikdə yandırmışdılar. Qeyd edək ki, müqəddəs məkanlara, tarixi abidələrə vurduqları ziyan bununla bitmir. Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlar da, etnik təmizləmə siyasəti də təkcə 1918-20-ci illərdə baş verən hadisələrdən ibarət deyil. XX əsrin sonlarından, 80-ci illərdən başlayaraq, Azərbaycan ərazilərini işğal etməyə başlamışlar. Nəticədə burada olan abidələrə, maddi-mədəbiyyət nümunələrinə də ziyan vurmuşlar. Təkcə onu göstərmək kifayətdir ki, məscidlərdə heyvanlar saxlamışlar.

1918-ci ildən başalayan hücumlar 1919-cu ilin noyabrından daha da kəskinləşdi. Ermənilər Zəngəzurun Oxçu, Atqız, Şabadan kimi kəndlərində daha geniş hücumlar təşkil etmiş, ağır əməliyyatlar aparmışlar. 1920-ci ildən etibarən isə bu qırğınların şiddətlənməsini təşkil edən Ararat respublikası olmuşdur. Bunun da əsas məqsədi Zəngəzuru azərbaycanlılardan təmizləyərək, tamamilə erməniləşdirmək, Zəngəzuru ələ keçirdikdən sonra Paris sülh konfransında iştirak edən əsas dövlətlərin əli ilə həmişəlik ələ keçirərək, bunu qanuniləşdirmək idi. Təsadüfi deyil ki, etnik təmizləmə prosesində Ararat dövlətinin rəsmi silahlı birləşmələri iştirak edirdi.1920-ci ilin yanvarından etibarən Azərbaycan Parlamentinə, siyasi dairələrə Zəngəzurdakı vəziyyətin pisləşməsi, ermənilərin törətdikləri kütləvi qırğınlar barəsində məktublar daxil olur, göndərilən məlumatlarda erməni vəhşiliklərinin qarşısını almaq üçün kömək istəyirdilər. Azərbaycan hökumətinə ünvanlanmış belə teleqramlar içərisində Zənəgzurda olmuş Azərbaycan parlamentinin üzvü Cəlil Sultanov və Cəbrayıldan olan müəllim Hüseyn Axundzadənin göndərdiklrərini qeyd etmək olar. 1920-ci il yanvarın 21 və 23-də göndərilmiş teleqramlardan da bir daha aydın olur ki, ermənilər amansızcasına Azərbaycan xalqına divan tutur, əhaliyə qarşı soyqırım törətməklə bu əraziləri ələ keçirməyə çalışırdılar. Cəlil Sultanovun 1920-ci il yanvarın 23-də göndərdiyi teleqramda da deyildiyi kimi, ermənilərin məqsədi Qarabağ, Naxçıvan, İrəvan, Zəngəzur ərazilərini tamamilə ələ keçirmək, yerli əhalini buradan tamam çıxarmaq və erməniləşdirmək olmuşdur: "Zəngəzur qəzası İrəvandan top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Ermənilərin məqsədi Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də, həm Qarabağ, həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü açıb dünyaya bəyan etmək vaxtı gəlib çatmışdır. Xahiş edirəm, təcili tədbir görün ki, heç olmasa, Şuşa və Cəbrayıl xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir". Qeyd edək ki, Zəngəzurda baş vermiş soyqırımla bağlı 2004-cü ildə Ermənistanda çap olunmuş «Гарагин Нжде и его учения» adlı kitabda yazılanlar da ermənilərin törətdiyi əməlləri bir daha sübutedir. Burada azərbaycanlıların daha çox öldürüldüyü yazılmış, türk və tatarların məskunaşdıqları 200 kəndin ermənilərə "qaytarıldığı" yazılmışdır. Bu da ermənilərin törətdiyi əməllərin etirafı kimi qiymətləndirilməlidir.

Birinci Dünya müharibəsinin yekununda imperiyaların dağılması ilə xalqlar öz müqəddəratlarını təyin etmək imkanı əldə etdi. Nəticədə çar Rusiyasının dağılması ilə Qafqaz xalqları damüstəqilliklərini elan etməyə nail oldular. Cənubi Qafqazda Azərbaycan Cümhuriyyəti, Ermənistan (Ararat) və Gürcüstan dövlətləri meydana gəldi. Dövlətlərin sərhədlərinin müəyyən edilməsində problemlər yaşandı. Belə ki, "Böyük Ermənistan" xülyasını reallaşdırmağa çalışan ermənilər sərhədləri bu arzuladıqları "dövlət"in sərhədlərinə uyğun təyinetmək istədi. Ermənilərin əsassız iddialarına görə, Ermənistan dövləti Osmanlı imperiyasının, Azərbaycan və Gürcüstanın ərazilərini

əhatə etməli idi. Bu planlarını növbəti illərdə də reallaşdırmağa çalışmışlar. Heç vaxt mövcud olmayan, yalnız xəyal olan "Böyük Ermənistan"ı qurmaq üçün xalqların əzəli və əbədi torpaqlarını mənimsəməyə çalışan ermənilərin bu gün də Azərbaycan və Gürcüstanla olan ərazi mübahisələri də bu siyasətinin nəticəsidir. Öz planlarını reallaşdırmaq üçün özgə torpaqlarını ələ keçirməyə çalışan, bunun üçün yerli, aborigen əhalini sürgün etməkdən, qətllər törətməklə öz doğma yurdlarından qovub çıxartmağa çalışan ermənilər xəyallarındakı "Böyük Ermənistan"ı qura bilməsələr də, hazırda mövcud olan Ermənistan Respublikasını yaratmağa nail oldular. Ermənilərin Azərbaycana qarşı törətdiyi qırğınlar, əsassız ərazi iddialarınason qoymaq üçün 1918-ci il mayın 29-da Azəraycan hökuməti tarixi torpaqları olan İrəvanı ermənilərə paytaxt kimi vermək məcburiyyətində qaldı. İrəvanın ermənilərə güzəşt edilmsinin əsas şərti ermənilərin digər ərazilərə olan iddialarından əl çəkməsi olmuşdur. Buna şərait yaradan amillərdən biri də ermənilərinpaytaxt kimi nəzərdə tutduqları Gümrü (Aleksandropol) ərazilərinin Osmanlının nəzarətinə keçməsi olmuşdur. Rus arxivlərində saxlanılanməlumatlardanaydın olur ki, 1917-ci il fevral inqilabından sonra yaranmış Müvəqqəti hökumət də ermənilərdən öz məqsədləri üçün istifadə etmişdir. Bu məqsədlə "Türkiyə Ermənistan"ı anlayışını qəbul edərək qərar qəbul etmişdir. Osmanlını zəiflətmək və məğlub etmək üçün burada yaşayan ermənilərdən istifadə edən rus, ingilis və digər qüvvələr onlara dövlət yaratmaqda vədlər verir və güzəştlər edirdilər. Məqsəd bu ərazilərdə möhkəmlənmək və bunun üçün də ermənilərdən siyasi vasitə kimi istifadə etmək idi. Çar Rusiyasının varisi olan yeni yaranmış hökumətin də, sovet Rusiyasının da erməniləri öz tərəfinə çəkməsi bu məqsədə xidmət edirdi. "Türkiyə Ermənistan"ı anlayışını tətbiq edərək burada onlara dövlət yaratmağa çalışırdılar. Lakin, tarixdən məlum olduğu kimi, Osmanlı dövləti sonradan həmin əraziləri azad etdiyi üçün ermənilərə dövlət yaradılması planı Qafqaza keçirilmiş oldu. Bununla da, Cənubi Qafqaz ərazisində tarixi Azərbaycan torpaqlarında – Qərbi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradılmış oldu.

Ermənilərin soyqırım törətdiyi Azərbaycan ərazilərindən biri də İrəvan olmuşdur. Hələ 1917-ci ilin noyabrında Rusiyada oktyabr çevrilişindən sonra Şərqi Anadoludan və Qafqaz cəbhəsindən geri çəkilən rus qoşunlarının silahlarını ələ keçirən ermənilər türklərə və azərbaycanlılara qarşı soyqırımlar törətmişlər. Belə ki, 1917-ci il dekabrın 5-də Cənubi Qafqaz Komissarlığı ilə Osmanlı hökuməti arasında Ərzincanda saziş imzalandı. Bundan sonra rus qoşunlarının Şərqi Anadoludan geri çəkilməsindən sui-istifadə edən ermənilər silah-sursatı ələ keçirərək türk-müsəlman əhalini qırmağa başladılar. Bununla bağlı Almaniya xarici işlər nazirliyinin siyasi arxivində saxlanılan sənədlərdə də məlumat verilmişdir. Həmin dövrdə Almaniyanın Cənubi Qafqazdakı nümayəndəsi Bernştroffun 1918-ci il fevralın 27-də Almaniya Xarici İşlər nazirliyinə göndərdiyi məlumatda yazılmışdır: "Ərzincanda erməni könüllü dəstələrinin törətdiyi vəhşiliklər çox vacib hesab edilməlidir. Kəndlərdə əhali bütünlüklə məhv edilmişdir". 1918-ci ilin əvvəlindən İrəvan quberniyasında azərbaycanlılara qarşı erməni silahlı dəstələri kütləvi qırğınlar törətməyə başlamışdılar. 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Yeni-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kənd olmaqla, 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər azərbaycanlını soyqırımına məruz qoymuşdular. 1919-cu ilin sentyabrına kimi Zəngibasarın bəzi kəndəri istisna olmaqla, İrəvan qəzasının, eyni zamanda da, Vedibasarın bütün kəndləri dağıdılaraq məhv edilmiş, əhalisi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdlarından bu yolla çıxarılmışdır. 1920-ci ildə "Azərbaycan" qəzetinin aprel ayında dərc edilmiş nömrəsində bununla bağlı məlumat verilmişdi: "Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd təkcə apreldə məhv edilmişdir. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B.Qaraqoyunlu, K.Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Mərzə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq

evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxaraq qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlara bərabərdir". Bu qəzetdə çıxan məlumatlar da bir daha ermənilərin başqasının torpağına zorla, soyqırım törədərək yiyələnməsinə, yerli əhalini didərgin salmasına sübutdur. Həmçinin, sadalanan kənd adlarının etimologiyasına diqqət yetirdikdə, onların hər birinin Azərbaycana məxsus olduğunu göstərir. Lakin sonradan ermənilər toponimlərə qarşı da soyqırım siyasəti yeridərək doğma Azərbaycan torpaqlarını erməniləşdirmək üçün yer adlarını dəyişdirmişlər. Bununla bu ərazilərin tarixən Azərbaycana məxsus olduğunu inkar etməyə, tarixi saxtalaşdırmağa çalışırlar. Lakin mənbələrdə, tarixi sənədlərdə qeyd edilən adlar və onların mənşəyi də erməni yalanlarını ifşa edir. Ermənilərin bu ərazilərə sonradan köçürülmələri barədə Böyük Britaniyanın arxivlərində saxlanılan ingilis sənədlərində də məlumat var. Bunlardan Böyük Britaniya Xarici İşlər Nazirliyinin siyasi kəşfiyyat şöbəsi tərəfindən 1918-ci il oktyabrın 28-də hazırlanmış memorandumda deyilir: "Erməni məsələsi həll olunarkən nəzərə alınmalıdır ki, onun cazibə mərkəzi Qafqazda deyil, Kiçik Asiyanın cənubundadır. Ermənilər Türkiyədən Qafqaza əsasən qaçqın kimi, son onilliklər ərzində Rusiya hakimiyyəti dövründə gəlmişlər. Rusiya hökuməti burada onlardan gürcülər və tatarlar arasında ixtilafları qızışdırmaq üçün istifadə etmişdir". Britaniya arxivində saxlanılan ingilis hökumətinə aid sənədlərdə, həmçinin, ermənilərin Azərbaycanda törətdiyi soyqırımlarla bağlı mühüm faktlar öz əksini tapmışdır. Bunlardan ingilis hökumətinin təyin etdiyi Cənubi Qafqaz üçün ali komissarı general O.Uordropun öz hökumətinə göndərdiyi məktubları, yazışmalarında yer alan məlumatları misal göstərmək olar. O, 1919-cu il oktyabrın 2-də Londona göndərdiyi raportunda məlumat verirdi: "Bu yaxınlarda ermənilər Yeni Bəyazid, Aleksandropol və İrəvan bölgələrində 60 müsəlman kəndini dağıtmışdılar". O.Uordropun 1919-cu ilin dekabrında göndərdiyi məktublarda qeyd olunmuşdur ki, ermənilər dinc əhalini – qadınları, uşaqlar da daxil olmaqla müsəlman əhalini məsciddə qətlə yetirdilər, Zəngəzur müsəlmanları vahimə içərisindədir. Qeyd edək ki, O.Uordropun məlumatlarına əlavə olaraq, Azərbaycan hökuməti tərəfindən də ingilis baş naziri lord Kerzona məktub göndərilmiş, Zəngəzurda baş verən ermənilərin törətdiyi soyqırım barədə məlumatlar verilmiş, bu ərazilərin ingilis hökuməti tərəfindən də rəsmi şəkildə Azərbaycan ərazisi kimi tanınması diqqətə çatdırılmışdır.

İngilis sənədlərindən məlum olur ki, ermənilərdən Osmanlıya qarşı ingilis hökuməti də istifadə etməyə çalışmış, hətta bu məqsədlə Andranikə türklərə qarşı müqavimət üçün silah və maliyyə dəstəyi göstərilmişdi. Ermənilərin Azərbaycanda törətdiyi soyqrıımlar isə ingilis planlarına zərər kimi qiymətləndirilmişdi. Bununla bağlı, rəsmi sənədlərdə, yazışmalarda göstərilir ki, ermənilər qırğınları dayandırmasa onlara edilən yardım dayandırılacaqdır. Bu barədə O.Uordrop 1920-ci il yanvarın 28-də göndərdiyi 52 saylı sənəddə yazırdı: "Mənim İrəvana səfərimin başlıca məqsədi nizami qoşunları Zəngəzurdan çıxarmaq və günahkarları cəzalandırmaq üçün erməni baş nazirinə təzyiq göstərmək idi. Artıq zati-ailələrinə teleqram göndərmişəm ki, əgər erməni hökuməti təcavüzə son qoymasa, Əlahəzrət hökumətinə onlara yardım göstərməməyi tövsiyə edəcəyəm". Bu faktların hər biri ermənilər tərəfindən Azərbaycan xalqına qarşı soyqırım törədildiyini təsdiq edir. Soyqırımla bağlı məsələlərdə hadisələrin ermənilər və Ararat dövlətinin siyasi xətti ilə törədildiyi birdaha sübut edilir. 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində ermənilərin həyata keçirdiyi soyqırımlar Osmanlı arxiv sənədlərində də öz əksini tapmışdır. Bu sənədlərdə erməni zülmündən, ermənilərin əhaliyə qarşı törətdiyi vəhşiliklərə qarşı müdafiə üçün Osmanlı 15-ci nizami ordu komandanlığından kömək istəməsi də qeyd edilmişdir. Bu dövrə aid sənədlər içərisində ermənlərin soyqırım törətdiyi ərazilərin təsvir edildiyi xəritələr də var ki, bunlar da baş vermiş qırğınların əhatə etdiyi ərazinin dəqiqləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik tarixi mənbələrdir. Belə xəritələrdən biri 1919-cu ilin 3 iyul tarixində tərtib edilmişdir. "Ermənilərin Göycə əhalisinə rəva gördükləri mezalimlərin icra edildiyi məntəqələrin təsviri" adlanan xəritədə ermənilərin soyqırım törətdiyi

| | |
|---|---|
| | ərazilər – Ağbulaq, Şörəyel, Qəmərli və digər ərazilər təsvir edilmişdir. Həmin ayda tərtib edilmiş daha bir xəritədə İrəvan, Böyük Vedi, Qaralar, Şirazlı, Xalisə, Sədərək, Əlisar kimi soyqırıma məruz qalmış bölgələr göstərilmişdir. 1920-ci ilə aid Osmanlı arxiv sənədlərində ermənilərin törətdiyi vəhşiliklər, insanlığa sığmayan şəkildə əhalini qətlə yetirməsi barədə məlumatlara rast gəlmək mümkündür. Bunlardan 1920-ci ildə İrəvanın Qızılkilsə kəndində 50 nəfər uşaq və yeniyetmənin ermənilər tərəfindən balta ilə doğrandığı, gözlərinin qızarmış şişlərlə çıxarıldığını, insanların qazanlarda yandırılaraq işgəncələrlə məhv edildiyinin əks olunduğu sənədləri misal göstərmək olar. Osmanlı arxivinə aid olan sənədlər də bir daha sübut edir ki, 1918-1920-ci illərdə ermənilər azərbaycanlılara qarşı soyqırım törətmiş, vəhşicəsinə qətllər törətməklə Azərbaycan ərazilərini işğal etmişlər və bütün bunların nəticəsində tarixi Azərbaycan torpaqlarında özlərinə dövlət yaratmışlar.<br>İndi Ermənistan adlanan dövlətin ərazisi olan – Qərbi Azərbaycan ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu tarixi mənbələr, toponimlər, buranın türk mədəniyyətinə məxsusluğunu sübut edən abidələr mövcuddur. Lakin "Böyük Ermənistan" xəyalları ilə yaşayan ermənilər buranın aborigen əhalisini soyqırım, deportasiya yolu ilə öz doğma torpaqlarından didərgin salmışdır. Tarixə nəzər saldıqda, mövcud tarixi-siyasi şəraitin də bu baxımdan ermənilər üçün səmərəli olduğunu görmüş oluruq. Çar Rusiyası, sonradan SSRİ zamanı ermənilər yaranmış fürsətdən öz planları üçün istifadə etmişlər. 1918-1920-ci illərdə ermənilərin həyata keçirdiyi soyqırımlar 1905-1906-cı illərdə törətdiyi qırğınların, apardıqları eyni siyasətin davamı olmuşdur. Lakin Azərbaycana qarşı, azərbaycanlılara qarşı soyqırım, etnik təmizləmə siyasəti bununla bitməmişdir. V. İ. Leninin başçılıq etdiyi Sovet Rusiyasının hakim dairələrində böyük nüfuz sahibi olan erməni və gürcü bolşeviklərinin diktəsi ilə bu regionda yeritdiyi yeni müstəmləkəçilik siyasətinin nəticəsi olaraq, 1920-ci ilin dekabrında Zəngəzurun heç bir qeyri-şərtsiz Ermənistana verilmişdir. bu məsələnin tamamilə öz xeyirlərinə həll olunduğunu hiss edən ermənilər müvəqqəti sakitlik yaratmaq üçün Zəngəzurdan qovulmuş azərbaycanlı əhalinin geriyə, öz yurd - yuvalarına qayıtmalarına etiraz etməsələr də, sonrakı illərdə yenidən azərbaycanlıları doğma yerlərindən didərgin salmışlar. Sovet rejiminin əli ilə 1948-53-cü illərdən azərbaycanlılar Ermənistan SSR-dən deportasiya olunmuşdur. Onların evlərində, doğma, tarixi ərazilərində isə ermənilər məskunlaşdırılmışdır. Azərbaycanlıları bu ərazidən sıxışdırıb çıxarmaq üçün ermənilər bütün vasitələrdən, yaranmış hər fürsətdən istifadə etmişdilər. 1980-ci illərin sonlarından başlayaraq, SSRİ-də mövcud siyasi vəziyyətdən istifadə edərək azərbaycanlıları Qərbi Azərbaycandan tamamilə qovub çıxarmağa nail olmuşdular. Bu faktlar ermənilərin əməllərinin insanlığa və beynəlxalq hüquq normalarına zidd olduğunu bir daha sübut edir. Doğma yerlərindən didərgin düşən azərbaycanlı əhalinin hüquqları bərpa olunmalıdır. Bu, soyqırıma məruz qalan, qovulan əhalinin tarixi və hüquqi baxımdan haqqıdır. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>90% |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>Layihənin araşdırılması zamanı əldə edilmiş mənbə və ədəbiyyatlar Qərbi Azərbaycan əhalisinin tarixi hüquqlarının bərpası istiqamətində təhlil edilərək nəzərdən keçirilmişdir. Belə ki, mənbələrdə əks edilmiş faktlar bu ərazilərin azərbaycanlıların tarixi torpaqları olmasını və Qərbi Azərbaycanın etnik tərkibinin süni və qeyri-humanist şəkildə dəyişdirildiyini bir daha sübut edir. Bu mərhələdə 1918-1920-ci illərdə Qərbi Azərbaycanda – İrəvan və Zəngəzur ətrafında ermənilər tərəfindən həyata keçirilmiş soyqırımlar təhlil edilmişdir. Qeyd edək ki, Bu soyqırımları sübut edən qiymətli sənədlər bu gün Azərbaycan Respublikası Milli Arxiv idarəsində qorunan Fövqəladə Təhqiqat Komissiyasının |

| | |
|---|---|
| | sənədlərində, Türkiyə Cumhuriyyətinin "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi", "Başbakanlık Osmanlı Arşivi" və Almaniya Federativ Respublikasının Berlin şəhərindəki "Almaniya Xarici İşlər Nazirliyinin Siyasi arxivi"nin (Politischen Archiv den Auswätrigen) Birinci Dünya Harbi (BDH) və İstiklal Savaş Harbi (İSH) fondlarında qorunub saxlanılır. Həmin arxiv sənədlərindəki faktiki materiallar sübut edir ki, 1918-1920-ci illərdə ermənilər Azərbaycanın bir çox ərazilərində, o cümlədən də, Qərbi Azərbaycan qəzasında on minlərlə dinc, silahsız türk-müsəlman əhalini etnik mənsubiyyətinə görə amansızcasına qətlə yetirmişdir. |
| 4 | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusunun araşdırılması zamanı keyfiyyət tədqiqat metodundan, sənəd təhlilindən istifadə edilmişdir. İlk növbədə mövzu ilə bağlı bu vaxta kimi yazılmış monoqrafiyalar, məqalələrə müraciət edilmiş, arxiv materiallarındakı faktlar nəzərdən keçirilmişdir. Araşdırma zamanı ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. |
| 5 | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə İsmayılova Aygün və icraçı Abbasova Sevincin həmmüəllif olduğu "Genocide carried out in Western Azerbaijan in 1918-1920" adlı məqalə "Slovak international scientific journal"ın №84 sayında çap olunması üçün qəbul edilmişdir. |
| 6 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>- |
| 7 | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>- |
| 8 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| 9 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| 10 | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>- |
| 11 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>- |
| 12 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Mənbələrin toplanması və təhlili ilə bağlı bu sahənin mütəxəssisi tarix elmləri doktoru Anar İsgəndərli ilə əlaqə saxlanılmışdır. |
| 13 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>- |
| 14 | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | - |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>- |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə İsmayılova Aygün və icraçı Abbasova Sevincin həmmüəllif olduğu "Genocide carried out in Western Azerbaijan in 1918-1920" adlı məqalə "Slovak international scientific journal"ın №84 sayında çap olunması üçün qəbul edilmişdir. |

**Layihə rəhbərinin imzası ___________________ İsmayılova Aygün Vilayət qızı**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.